# Səyyar kitabxana xidməti təşkil olunub




Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba Rayon Mərkəzi Kitabxana Sisteminin oxuculara xidmət şöbəsi yeni layihə həyata keçirib.

Quba "Nizami" adına mədəniyyət və istirahət parkında səyyar kitabxana xidməti fəaliyyətə başlayıb. Sərgidə klassik Azərbaycan və xarici ədəbiyyat, ümumilikdə oxucuların marağını cəlb edən yeni kitablar nümayiş edilib. Layihə çərçivəsində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş "Nizami Gəncəvi ili" adlı kitab sərgisi iştirakçıların böyük marağına səbəb olub.

Yay mövsümündə mərkəzi kitabxana tərəfindən rayonun digər mədəniyyət və istirahət parklarında da bu kimi xidmətlərin göstərilməsi nəzərdə tutulub.

Səyyar xidmətin təşkilində əsas məqsəd kitabxana xidmətinin səviyyəsini yüksəltmək, gənclərdə mütaliə vərdişlərini və oxu mədəniyyətini inkişaf etdirməkdən ibarətdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 31 avqust.- S.11.